# COVID-19 xəstəliyinə qarşı hazırda 155 dərman preparatı və 79 peyvənd üzərində tədqiqat aparılır

21.04.2020 [16:01]






A⁻ A⁺

Vyana, 21 aprel, AZƏRTAC

Hazırda dünyanın müxtəlif ölkələrində COVID-19 xəstəliyinə qarşı 155 dərman preparatı və 79 peyvənd üzərində tədqiqat aparılır.

AZƏRTAC xəbər verir ki, bu məlumatı Sağlamlıq Texnologiyalarının Qiymətləndirilməsi üzrə Avstriya İnstitutu (AIHTA) yayıb. İnstitutun əməkdaşları bütün dünya üzrə aparılan tədqiqat proseslərini qiymətləndirərək, dərman preparatları və peyvəndlər barədə maraqlı məlumatlar əldə ediblər.

İnstitutdan bildirilir ki, dərman preparatlarının əksəriyyəti hazırda digər infeksiyalara qarşı tətbiq olunurlar və onların COVID-19 xəstəliyinə qarşı da effektli olacağı yoxlanılır. Lakin peyvəndlərdən hələ heç biri sınaq mərhələsini keçə bilməyib.

Dərman preparatlarının hamısı bir və ya bir neçə antiviral təsir maddələrinə əsaslanır. Bunların içərisində Remdesivir, Lopinavir və Ritonavir (ticari adı: Kaletra), Favipirvir (Avigan), Darunavir (Prezista) və digər təsir maddələrindən geniş istifadə edilir.

Araşdırma zamanı peyvənd sınaqlarında daha çox zəifləDilmiş virus stamları (virus zülallarını daşıyan “ölü peyvəndlər“) və xüsusi DNT və ya mRNA-ya malik gen əsaslı peyvənd maddələrinə üstünlük verildiyi müəyyən edilib. Eyni zamanda müəyyən edilib ki, on bir dərman preparatı və səkkiz peyvənd nümunələri kliniki tədqiqat və sınaqlarda təkmil mərhələyə çatıblar və elmi ədəbiyyatlarda onların uğur qazanacağı vəd olunur.

Qeyd edilməlidir ki, Avstriya Federal Səhiyyə Nazirliyinin sifarişi ilə hazırlanan araşdırmada əsas məqsəd hazırda dünyada COVID-19 xəstəliyinə qarşı hansı dərman və peyvəndlər

Bölmənin digər xəbərləri

27.04.2020 [19:04]
Hindistanda sağalan COVID-19 pasiyentlərinin plazmaları ağır xəstələrin müalicəsində istifadə olunacaq

27.04.2020 [18:15]
1542 Çağrı Mərkəzində psixoloji dəstək xətti və poliklinik xidmətlər fəaliyyətə başlayıb

27.04.2020 [18:07]
Onkoloji xəstələrin kimya və şüa terapiyaları aldıqları dövrdə oruc tutmaları tövsiyə olunmur

27.04.2020 [16:06]
Azərbaycanda yeni koronavirus infeksiyasına daha 33 yoluxma faktı qeydə alınıb, 23 nəfər müalicə olunaraq sağalıb

üzərində tədqiqat aparıldığını öyrənmək və müvafiq zaman yetişdikdə yerli səhiyyə sistemi üçün bir neçə dərman və ya peyvənd arasından ən uyğun olanının seçimini təmin etməkdir.

***Elgün Niftəli***

***AZƏRTAC-ın xüsusi müxbiri***

***Vyana***

© Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır

Mətndə səhv varsa, onu qeyd edib ctrl + enter düyməsini basaraq bizə göndərin

**MÜƏLLİFLƏ ƏLAQƏ**

MULTİMEDİA VİDEO İNFOQRAFİKA



27.04.2020 [19:37]
"Son zəng" tədbirləri onlayn keçirilə bilər


27.04.2020 [19:28]
Dünyanın ən böyük konteyner gəmisi ilk səfərinə başlayıb


27.04.2020 [19:19]
Son aylarda keçirilməyən mövzular üzrə suallar qəbul


27.04.2020 [18:55]
Nazir: Hərbi xidmətə çağırış vaxtı çatan tələbələrlə bağlı

Bütün Videolar

SİYASƏT



İƏT-in Milli Xəbər Agentlikləri Birliyinin portalı Azərbaycan

27.04.2020 [19:05]
Azərbaycan və Qırğızıstan Xarici İşlər nazirlərinin telefon danışığı olub

27.04.2020 [18:58]
Vətəndaşlar dövlət başçısına yazırlar: Bir daha gördük ki, xalq-Prezident vəhdəti sarsılmazdır

27.04.2020 [18:17]
Milli Məclisin Parlamentlərarası İttifaqda nümayəndə heyətinin tərkibi müəyyənləşib

İQTİSADİYYAT



Banklar Assosiasiyasının Rəyasət Heyətinin geniş tərkibdə iclası

27.04.2020 [17:48]
Azərbaycan fevralda Türkiyəyə 859 milyon kubmetr təbii qaz göndərib

27.04.2020 [17:44]
KOBİA yanında İctimai Şuranın üzvləri ilə videokonfrans keçirilib

27.04.2020 [17:41]
ABŞ neftinin qiyməti 12 dollar/barrelə enib

ELM VƏ TƏHSİL



Təhsil naziri Ceyhun Bayramov Operativ Qərargahda brifinq keçirib

27.04.2020 [19:37]
Aprelin 27-də tədris proqramına uyğun teledərslər təqdim edilib

27.04.2020 [19:36]
Akademik: Koronavirusla nümunəvi mübarizə dövlətimizin başçısının uzaqgörən siyasətinin nəticəsidir

27.04.2020 [19:19]
Bakı Xoreoqrafiya Akademiyasında bütün pillələr üzrə tədris distant olaraq davam etdirilir

MƏDƏNİYYƏT


Pandemiya günlərində xalqımız milli birlik nümayiş etdirdi

27.04.2020 [17:23]
“Klassik incilərimiz” layihəsinin növbəti həftəsi Məhəmməd Füzuliyə həsr olunub

27.04.2020 [16:17]
Beynəlxalq Muğam Mərkəzinin “Unudulmayanlar” layihəsi maraqla qarşılanır

27.04.2020 [15:44]
Muzey işçiləri üçün onlayn təlim təşkil olunub

TURİZM SƏHİYYƏ EKOLOGİYA CƏMİYYƏT